Türkdilli ölkələrin Dövlət Başçıları Şurası tərəfindən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə "Türk Dünyasının Ali Ordeni" təqdim edilməsi ilə bağlı qəbul olunan Qərarında deyilir: "Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsinə və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə Dövlət Başçıları Şurası Türkiyə Respublikasının Prezidenti Zati-aliləri Rəcəb Tayyib Ərdoğanın təklifi ilə Zati-aliləri İlham Əliyevin böyük şərəflə "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında qərar qəbul etmişdir".

Xatırladaq ki, qərar Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan prezidentləri tərəfindən imzalanıb.

Dövlətimizin başçısının Türk dünyasının ali mükafatı ilə təltif edilməsi Azərbaycan Prezidentinin böyük şəxsiyyətinə, Türk dünyasında liderliyinə, beynəlxalq miqyasda və türkdilli dövlətlər arasında olan



# Azərbaycan Prezidentinə və xalqına yüksək ehtiram

***Azərbaycan tarix boyu türk xalqları arasında ortaq dil, tarix və mədəniyyət platforması üzərində qarşılıqlı etimad mühitinin formalaşmasına öz layiqli töhfəsini verməyə cəhd göstərib və buna uğula nail olub. Əlbəttə, bu missiyanın gerçəkləşməsində Azərbaycan-Türkiyə münasibətləri mühüm rol oynayıb. Belə ki, iki qardaş ölkənin sarsılmaz dostluq və qardaşlıq xətti üzərində səmərəli əməkdaşlığı digər türkdilli xalqların və dövlətlərin bir araya gəlməsini, bölgədə yaşayan bütün xalqların təhlükəsizliyinə, firavan həyatına təminat verən müasir modelin yaranmasını şərtləndirib. Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının ötən dövr ərzindəki səmərəli fəaliyyəti də bu missiyanın yüksək səviyyədə reallaşmasına öz müsbət təsirini göstərib. Təbii ki, bu məsələdə də Azərbaycan öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Artıq Türk Dövlətləri Təşkilatı adlanan beynəlxalq təsisatın Zirvə Görüşündə Azərbaycan Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi də dövlətimizin başçısının türk dünyasına verdiyi böyük töhfələrdən qaynaqlanıb.***

yüksək nüfuzuna, ən əsası, ölkəmizin ərazilərinin işğaldan azad edilməsini, ərazi bütövlüyünün bərpasını reallaşdıraraq, Türk birliyinə mühüm töhfə verən, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına yol açan tarixi qələbənin əldə olunmasındakı misilsiz xidmətlərinə verilən layiqli qiymətdir.

Prezident İlham Əliyev Türk dünyasında uzaqgörən, məqsədyönlü, prinsipial lider kimi şöhrət qazanıb. Bunu Azərbaycanın 2019-2021-ci illərdə Türk Şurasına uğurla sədrlik etdiyi dövrdəki səmərəli, uzaqgörən siyasəti şərtləndirib. Dövlətimizin başçısı təşkilatın fəaliyyətinin gücləndirilməsi, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətlərində ciddi səylər göstərib, Türk Şurasının digər mötəbər beynəlxalq təşkilatlarla, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT, İqtisadi Əməkdaşlıq Təşkilatı ilə səmərəli əməkdaşlıq münasibətlərinin davam etdirilməsinə, Ümumdünya Səhiyyə Təşkilatı ilə faydalı əməkdaşlıq çərçivəsinin qurulmasına misilsiz töhfələr verib.

Türk xalqları hər zaman sülhün, əmin-amanlığın tərəfində olub, dögər ölkələrin sülh təşəbbüslərinin dəstəkləyib və bu missiyanın gerçəkləşməsini qarşıya mühüm vəzifə kimi qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazanılan parlaq qələbə də Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpasının təmin olunması ilə bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına, regionda əmin-amanlığın reallaşmasına əlverişli yol açıb.

Dövlətimizin başçısının "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi ilə bağlı bir məqama xüsusi diqqət yönəltmək istərdim. Belə ki, iki yüz illik bir tarix ərzində Türk dünyasında belə bir tarixi zəfərə–30 il erməni işğalında qalan əzəli-əbədi Azərbaycan torpaqlarının–Qarabağ və Şərqi Zəngəzurun azad olunması kimi parlaq qələbə heç kimi tərəfindən əldə edilməyib. Bu möhtəşəm uğura möhtərəm dövlət başçımız imza atıb. Bu tarixi nailiyyət təkcə Azərbaycan xalqını deyil, eyni zamanda, qardaş Türkiyəni, bütün türk xalqlarını qürurlandırıb, sabaha, gələcəyə inam hissini gücləndirib. Bütün bunlarla yanaşı, cənab İlham Əliyevin Ali Baş Komandan kimi döyüş əməliyyatlarının həyata keçirilməsində, Azərbaycan Respublikasının Prezidenti kimi diplomatik müstəvidə və informasiya müharibəsində nümayiş etdirdiyi yüksək liderlik keyfiyyətləri isə onun nüfuzunu daha da artırıb, bu cür fədakar fəaliyyət isə adını Türk tarixinə qızıl hərflərlə yazdırıb.

Prezident İlham Əliyevin tarix baxımından qısa dövr ərzində Azərbaycanı inkişaf etmiş, müasir, güclü və dünya miqyasında nüfuzlu bir dövlətə çevirməsi, eyni zamanda, ölkə rəhbərinin nümayiş etdirdiyi liderlik xüsusiyyətləri, diplomatik məharət, Azərbaycanın milli maraqlarının təmin edilməsi məqsədilə həyata keçirdiyi prinsipial, ardıcıl və qətiyyətli siyasət dünya miqyasında, türkdilli xalqlar arasında və xalqımız tərəfindən yüksək qiymətləndirilir.

Məhz dövlətimizin başçısının diplomatik səyləri və məharəti nəticəsində Azərbaycanın haqq səsi dünyaya çatdırıldı, erməni yalanları beynəlxlaq miqyasda ifşa olundu, dünyanın aparıcı beynəlxalq təşkilatları tərəfindən ölkəmizin ərazi bütövlüyünü dəstəkləyən qərar və qətnamələr qəbul edildi, ayrı-ayrı dövlətlər, dünya səviyyəsində tanınmış ictimai-siyasi xadimlər, nüfuzlu şəxsiyyətlər tərəfindən Ermənistanın işğalçılıq siyasəti pislənildi və Azərbaycanın haqq işinə dəstək verildi.

Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət nəticəsində ötən illər ərzində Azərbaycanda güclü iqtisadi potensial formalaşdırıldı, güclü, müasir, qarşısında duran istənilən vəzifəni yerinə yetirməyi bacaran müzəffər ordu yaradıldı.

Dövlətimizin başçısının sərkərdəlik və diplomatik məharəti sayəsində Azərbaycan İkinci Qarabağ müharibəsində Ermənistanı diz çökməyə, kapitulyasiya aktını imzalamağa məcbur etdi, Azərbaycan Ordusu tarixi ərazilərilərimizi işğaldan azad edərək möhtəşəm zəfər qazandı.

Prezident İlham Əliyevin yürütdüyü ardıcıl, düşünülmüş siyasəti güclü erməni diasporunun, Ermənistana dəstək verən Qərb dairələrinin, işğalçı ölkənin ayrı-ayrı tərəfdaşlarının Azərbaycana qarşı yönəlmiş addımlarını neytrallaşdırdı, Ermənistanın izolyasiyası, dalan dövlətə çevrilməsini gerçəkləşdirdi.

Ordumuzun 44 günlük zəfər yürüşü ilə Azərbaycan öz ərazisinin bərpası ilə bərabər, həm də Türk dünyasını bütövləşdirdi. Belə ki, Vətən müharibəsində məğlubiyyətə uğrayan Ermənistan imzalanan üçtərəfli bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyini təsdiqlədi. Başqa sözlə desək, düşmən Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılmasına razılığını bildirdi.

Xatırladaq ki, əməkdaşlıq və nəqliyyat baxımından Zəngəzur dəhlizinin yaradılması Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan sənədlər arasında ən mühüm məsələlərdən biri sayılır və bu, Ermənistan da daxil olmaqla bütün region ölkələrin maraqlarına xidmət edir. Azərbaycan bölgədə davamlı sülhün bərqərar olunması üçün əsas vasitəni əməkdaşlıqda görür və buna görə də Zəngəzur dəhlizinin yaradılmasını, nəqliyyat əlaqələrinin bərpasını qətiyyətlə dəstəkləyir.

Bu dəhlizin əhəmiyyəti barədə dövlətimizin başçısı çıxışlarının birində deyib: "Qədim Azərbaycan torpağı olan Zəngəzur indi Türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün Türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən, Ermənistan üçün. Ermənistanın hazırda onun müttəfiqi olan Rusiya ilə dəmir yolu əlaqəsi yoxdur. Bu dəmir yolu əlaqəsi Azərbaycan ərazisindən yarana bilər. Ermənistanın onun qonşusu olan İranla dəmir yolu əlaqəsi yoxdur. Naxçıvan vasitəsilə bu dəmir yolu təmin edilə bilər. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır. Artıq Azərbaycan bu işlərə start vermişdir. Əminəm ki, tərəfdaş ölkələr də bu imkanlardan istifadə edəcəklər".

Göründüyü kimi, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti ilə Vətən müharibəsində əldə edilən möhtəşəm zəfər istər ölkəmizin, istərsə də regionun, xüsusilə Türk dünyasının bugünkü və gələcək inkişafını şərtləndirdi. Bu uğur, eyni zamanda, dövlətimizin başçısının yüksək ali mükafata layiq görülməsinə gətirib çıxardı. Azərbaycan Prezidenti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə bu təltifi, mükafatı böyük məsuliyyət kimi dəyərləndirdi, Ali Ordenin Türk Şurasına üzv ölkələrin dövlət başçılarının imzasından və hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın təşəbbüsü ilə təqdim edilməsindən şərəf duyduğunu vurğuladı.

Bu gün Azərbaycan və Türkiyə arasındakı qardaşlıq münasibətləri başqa türkdilli ölkələr üçün də birlik modeli yaradır, nümunə göstərir. İki ölkənin təşəbbüsü ilə irəli sürülən qlobal layihələrdə digər türkdilli dövlətlərin də maraqları uzlaşır.

Azərbaycanla Türkiyə arasında uzun illərin sınağından çıxmış dostluq və qardaşlıq münasibətləri bir daha onu göstərir ki, iki ölkə arasındakı əlaqələr əbədidir və heç bir qüvvə, heç bir maneə bu dostluğun, qardaşlığın qarşısını ala, sarsıda bilməz.

İki qardaş ölkənin yaxından iştirakı ilə reallaşdırılan qlobal layihələr regionun mənzərəsini dəyişir. Cənubu Qafqazda sülh və təhlükəsizliyin təmin olunması, bu bölgənin yaxın gələcəkdə dünyanın inkişaf mərkəzlərindən birinə çevrilməsi üçün əsaslı zəmin formalaşdırır. Bu prosesə töhfə verən hər kəs isə bundan yalnız faydalanır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.-16 noyabr.- S.1.